**Nərğiz Akif qızı Ağalarova**
Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant
E-mail: a.nergiz@mail.ru

# AZƏRBAYCAN REGİONLARININ MÖVCUD SOSİAL-İQTİSADİ İNKİŞAF SƏVİYYƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ NƏZƏRİ-PRAKTİKİ YANAŞMA

**Xülasə**

Məqalədə regional inkişafın qiymətləndirilməsi göstəriciləri və metodları nəzərdən keçirilmiş, Azərbaycan regionlarının sosial-iqtisadi inkişaf səviyyələri təhlil edilərək qiymətləndirilmiş və ölkənin sosial-iqtisadi inkişafında regionun yerinin müəyyən edilməsinə müəllif yanaşması əsaslandırımış və müvafiq nəticələrə gəlinmişdir. Regionların inkişafı üçün operativ həllərin və strateji proqramların işlənib hazırlanması məqsədilə mövcud vəziyyətin və müəyyən edilmiş sosial-iqtisadi hadisə və proseslərin qanunauyğunluqlarının təhlili vacibdir. Müasir dünyanın inkişafı xeyli sayda müxtəlif qurumların, sahibkarlıq subyektlərinin, dövlətin, vətəndaşların maraqlarının nəzərə alınmasını, bu maraqların əlaqələndirilməsini və həyata keçirilməsini tələb edir. Hazırda Azərbaycan rifah cəmiyyətinin formalaşdırılması üçün dövlətin, regionların və icmaların mənafeyini tam və hərtərəfli təmin etmək imkanı əldə edir.

**Açar sözlər:** region, sosial-iqtisadi inkişaf, Azərbaycan, qiymətləndirmə

**UOT:** 332
**JEL:** O 18
**DOI**: https://doi.org/ 10.54414/HMKB9636

## Giriş

Ölkədə aparılan islahatlar dövlətin struktur elementlərinin tarazlı inkişafına nail olmaq məqsədi daşıyır. Mərkəzsizləşdirmə prosesləri regionların milli iqtisadiyyatın sosial-coğrafi və sosial-iqtisadi strukturları kimi rolunu əhəmiyyətli dərəcədə dəyişir. Eyni zamanda, regional inkişafın uzunmüddətli sabitləşməsinə nail olmaq kimi strateji məqsədləri nəzərə almadan mövcud vəziyyətin yaxşılaşdırılmasının taktiki (qısamüddətli) məsələlərinə diqqətin yönəldilməsi regionların inkişafını xeyli çətinləşdirir, onun sistemliliyini və ahəngdarlığını təmin etmir. İqtisadi inkişaf üçün vacib olan problemlərin həlli, artım üçün resursların tapılması və aktivləşdirilməsi əsasında regional sosial-iqtisadi təkrar istehsal proseslərinin tənzimlənməsinə ehtiyac artmaqdadır. Belə problemlər arasında regionların sosial-iqtisadi inkişafındakı qeyri-bərabərlik problemi xüsusi yer tutur ki, bu da işğaldan azad olmuş ərazilərin bərpası, yeni post-konflikt ərazilərinin yaranması ilə birlikdə onların tənzimlənməsinə ehtiyacı artırır. Bu, regional inkişaf qeyri-bərabərliyinin tənzimlənməsi sisteminin qurulmasında və ondan istifadə üçün praktiki tövsiyələrin hazırlanmasında tədqiqat maraqlarını gücləndirir.

Bir çox yerli alimlərin, o cümlədən Ə.Nuriyevin [1], M.Mahmudov, İ. Mahmudova [2], S. Məmmədov[3], O.Nağıyeva[4], N.Əliyeva[5] və başqalarının əsərləri Azərbaycanın bölgələrinin iqtisadi inkişafının araşdırılmasına həsr olunub.

## 1. Regional inkişafın qiymətləndirilməsinin göstəriciləri və metodları

Bölgənin sosial-iqtisadi inkişaf səviyyəsi təsərrüfat fəaliyyətinin kəmiyyət və keyfiyyət aspektlərini üzvi birləşmədə əks etdirir ki, bu da ilk növbədə istehsal ehtiyatlarından istifadə dərəcəsini, ən mühüm sosial və fərdi ehtiyacları ödəmək qabiliyyətini, iqtisadi fəaliyyətin səmərəliliyini mövcud iqtisadi potensial, regionun ölkənin milli iqtisadiyyatına verdiyi töhfə kimi xarakterizə edir. Məhz bu göstərici müasir iqtisadi şəraitdə, fikrimizcə, kompleks planlaşdırma sistemi vasitəsilə regionların sosial-iqtisadi inkişaf səviyyələrinin yaxınlaşması üçün tənzimləyicilərin işlənib hazırlanması üçün əsas ola bilər.

Ümumi potensial göstəricilərindən fərqli ola-

raq, sosial-iqtisadi inkişaf səviyyəsinin göstəricisi mütləq dəyərlərdən, torpaq sahəsindən, əhalinin sayından, təsərrüfat dövriyyəsinə cəlb olunan resursların sayından asılı olmayaraq, regionun yaradılmış potensialının keyfiyyət və səmərəliliyini xarakterizə edir; onun gələcək inkişaf imkanlarını müəyyən edir. Yəni, region kiçik iqtisadi potensiala malik olsa da, sosial-iqtisadi inkişaf səviyyəsi yüksək ola bilər.

Regional inkişafın qiymətləndirilməsində yerli və xarici təcrübənin təhlili onun səviyyəsini müəyyən etmək üçün aşağıdakı əsas metodları müəyyən etməyə imkan verir:

1. Regionun sosial-iqtisadi inkişafının qiymətləndirilməsinin indeks metodu.
2. Bölgədə sahibkarlıq fəaliyyətinin səviyyəsinin qiymətləndirilməsi üçün bal sistemi.
3. Regionun sənaye sahələrinin fəaliyyətinin qismən göstəriciləri sistemi.
4. Ərazi proporsiyaları sistemi.
5. Milli Hesablar Sisteminin metodologiyasına əsasən adambaşına düşən xalis göstəricilərin hesablanması.

XX əsrin 70-80-ci illərində azərbaycanlı regionşünas alimlər (Ə.X.Nuriyev, M.M.Mahmudov və başqaları) tərəfindən hazırlanmış və Sovet İttifaqının proqnozlaşdırma və planlaşdırma işində praktiki olaraq istifadə edilən regional inkişaf səviyyələrinin qiymətləndirilməsinin yeni üsulu meydana çıxdı. İlk dəfə olaraq onlar təkcə maddi istehsal sahəsini deyil, region iqtisadiyyatının sahələrinin mürəkkəbliyini nəzərə alaraq təsərrüfat fəaliyyətinin nəticələrinin hesablanması məsələsini qoydular[1, 2]. İqtisadi və sosial inkişaf səviyyəsi maddi istehsalın səviyyəsini xarakterizə edən göstəricilər toplusu (adambaşına düşən ümumi sənaye məhsulu, 1 km2 əraziyə düşən ümumi sənaye məhsulu, 1 km2 əraziyə düşən ümumi kənd təsərrüfatı məhsulu, əhalinin sayı hər 100 nəfərə düşən sənaye və istehsalat kadrları, adambaşına düşən əsas sənaye və istehsal fondları, əmək məhsuldarlığı, 1 km2-ə düşən əsas nəqliyyat fondları, sənaye sahələrinə investisiyanın gəlirliliyi) və sosial sferanın inkişaf səviyyəsini xarakterizə edən göstəricilər sistemi (əməkdaşların sayı əhalinin hər 10 min nəfərinə düşən sosial infrastruktur sahələrində çalışanlar, adambaşına düşən hesablamada sənayenin əsas fondları, pərakəndə ticarət dövriyyəsi, adambaşına düşən məişət xidmətlərinin həcmi, mənzillə təminat, xəstəxanalar, uşaq məktəbəqədər təhsil müəssisələri, təhsil, mədəniyyət, idman müəssisələri və s.) ilə təmsil olunur.

1970-ci illərdə ərazi proporsiyaları sistemi vasitəsilə sosial-iqtisadi inkişaf səviyyələrinin qiymətləndirilməsi üçün başqa bir model meydana çıxdı [6, s.30].

Bu modelə əsasən, əsas ərazi nisbətlərinə aşağıdakılar daxil olundu:

1. Ərazi, əhali, əsas fondlar hesabına yaradılmış investisiyalar, yaradılan milli gəlir, əsas vəsaitlər üzrə Azərbaycanın regionlarının payını xarakterizə edən göstəricilər.
2. Maddi istehsalın sahələri üzrə regionlar üzrə ümumi məhsulun təmərküzləşməsini xarakterizə edən göstəricilər.

**2. Azərbaycan regionlarının sosial-iqtisadi inkişaf səviyyələrinin təhlili və qiymətləndirilməsi**

Regionların iqtisadi və sosial inkişaf səviyyələrində regionlararası fərqlərin qiymətləndirilməsi bir proporsiyaya əsaslanmır, müxtəlif göstəricilərə görə ərazi proporsiyalarının müqayisəsi yolu ilə aparılır: xalis məhsul və əhalinin sayı; kənd təsərrüfatının ümumi istehsalı və kənd təsərrüfatı torpaqlarının sahəsi, milli gəlir və təbii resurs potensialı və s.

Cədvəl 1-də 1 yanvar 2022-ci il tarixinə Azərbaycanın ən mühüm ərazi nisbətləri göstərilir. Ölkənin iqtisadi potensialı əsasən Bakı şəhərində cəmləşib ki, onun da payına ÜDM istehsalının demək olar ki, 67%-i, sənaye istehsalının 82%-i, pərakəndə ticarət dövriyyəsinin 58%-i, əsas kapitala yönəldilmiş investisiyaların 60%-dən çoxu, yeni iş yerlərinin 77%-i düşür. Bakı şəhərinin ümumi ərazisi Azərbaycan ərazisinin 2,5%-ni, əhalisi isə Azərbaycanın ümumi əhalisinin 22,7%-ni təşkil edir. Buna görə də, Bakı şəhərinin iqtisadi yükü Azərbaycanın orta göstəricisindən dəfələrlə yüksəkdir.

Başqa bir ərazidə isə məhsuldar qüvvələr daha az sıx yerləşdirilir. Məsələn, Şəki-Zaqatala iqtisadi rayonu ərazinin 10,2%-ni və ölkənin kənd təsərrüfatı istehsalının 7,8%-ni, Qarabağ iqtisadi rayonu ərazinin 10,4%-ni və ölkənin kənd təsərrüfatı istehsalının 3,5%-ni təşkil edir. Bu bölgələr ÜDM istehsalının ayrı ayrılıqda

təxminən 2-3 faizini, sənaye məhsulları istehsalının 0,4-0,8 faizini, hər biri əhalinin ortalama 9 faizini təşkil edib. Bu ərazi proporsiyalarından onların ərazi potensialından kifayət qədər istifadə olunmaması açıq-aydın görünür, bu regionların Azərbaycan istehsalındakı payları əhali və ərazi baxımından onların xüsusi çəkisindən xeyli aşağıdır.

**Cədvəl 1**

**1.01.2022 vəziyyətinə Azərbaycan regionlarının sosial-iqtisadi potensialı, % ilə**

| | Ərazi | Regionların sayı | əhali, | ÜDM istehsalı | Sənaye məhsullarının istehsalı | Kənd təsərrüatı məhsulların istehsalı | Kapital qoyuluşları | Yeni iş yerləri | Pərakəndə ticarət dövriyyəsi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| Azərbaycan Respublikası, cəmi | 100 | 76 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| Bakı şəhəri | 2,5 | - | 22,7 | 66,9 | 82,0 | 1,3 | 60,6 | 77,1 | 58,0 |
| Abşeron-Xızı iqtisadi rayonu | 4,3 | 3 | 5,7 | 5,8 | 7,5 | 2,6 | 7,3 | 4,7 | 4,3 |
| Naxçıvan Muxtar Respublikası | 6,4 | 8 | 4,6 | 3,6 | 1,9 | 6,2 | 6,3 | 0,6 | 2,4 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 6,1 | 6 | 6,0 | 2,2 | 1,6 | 3,5 | 2,5 | 3,8 | 4,1 |
| Qazax-Tovuz iqtisadi rayonu | 8,1 | 5 | 6,8 | 2,3 | 0,8 | 12,7 | 1,6 | 1,5 | 3,8 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 10,2 | 6 | 6,2 | 1,7 | 0,8 | 7,8 | 1,2 | 2,0 | 3,2 |
| Lənkəran-Astara iqtisadi rayonu | 7,0 | 6 | 9,4 | 1,9 | 0,6 | 8,8 | 0,9 | 2,3 | 4,4 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 8,0 | 5 | 5,5 | 2,0 | 0,6 | 9,9 | 2,7 | 2,3 | 3,3 |
| Mərkəzi Aran iqtisadi rayonu | 7,7 | 7 | 7,3 | 2,3 | 1,2 | 9,8 | 0,9 | 1,4 | 5,1 |
| Qarabağ iqtisadi rayonu | 10,4 | 9 | 8,9 | 2,7 | 0,4 | 3,5 | 8,0 | 1,0 | 2,4 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 7,1 | 7 | 3,2 | 0,9 | 0,2 | 4,4 | 1,3 | 0,8 | 1,7 |
| Mil-Muğan iqtisadi rayonu | 6,6 | 4 | 5,2 | 1,9 | 1,0 | 8,9 | 0,5 | 1,0 | 2,5 |
| Şirvan-Salyan iqtisadi rayonu | 7,0 | 5 | 5,0 | 2,1 | 1,6 | 6,9 | 0,9 | 1,4 | 3,3 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 8,6 | 5 | 3,4 | 0,9 | 0,0 | 1,0 | 5,1 | 0,3 | - |

2020-ci ilin əvvəlində Azərbaycan regionlarının inkişafındakı əsas təlatümlü dəyişikliklərə pandemiyanın nəticələri və Ermənistanın hərbi təcavüzü səbəb olub. Pandemiyanın aradan qaldırılmasının mümkün şərtlərinin müvəqqəti qeyri-müəyyənliyi və onun sosial-iqtisadi inkişafa təsirini qiymətləndirmək üçün vahid yanaşmaların olmaması Azərbaycan regionlarının sosial-iqtisadi inkişaf meyllərinin təhlili vəzifələrini yeniləməyi zəruri etdi. Əhalinin hərəkətini məhdudlaşdıran tədbirlər regional iqtisadi proseslərə mənfi təsir göstərmiş və mənfi maliyyə nəticələrinə səbəb olmuşdur. Gözlənilməz məhdudiyyətlər regionlar səviyyəsində iqtisadi fəallığı azaldıb və böhran xarakterli mənfi tendensiyaların başlanğıcını formalaşdırıb. Əvvəllər formalaşmış ssenarilərdə qeyri-müəyyənlik əlamətləri regionların innovativ davamlı inkişafını mümkünsüz etdi. Ekspert qiymətləndirmələri isə yerli və dövlət maliyyəsi sahəsində dəyişikliklərin zəruriliyinə qədər gətirib çıxardı. Belə bir şəraitdə regionlar yeni çağırışla üzləşdi və

ənənəvi idarəetmə metodlarından istifadə ilə iqtisad elminin davranış aspektlərini aktuallaşdıran yeni, əvvəllər gözlənilməz alət və yanaşmalardan istifadə ehtiyacı arasında seçim zərurəti yaratdı[7].

Azərbaycanda dayanıqlı və balanslaşdırılmış inkişafın ən əsas şərtlərindən biri ölkə üzrə ümumi sosial-iqtisadi inkişafın onun bütün vətəndaşlarına və bütün bölgələrinə əsasən bərabər səviyyədə təsirinin təmin olunmasıdır. Ölkəmizin ərazisi sosial-iqtisadi inkişaf və iqtisadi potensial səviyyəsi baxımından bir-birindən fərqli şəkildə ikiyə bölünmüş hissə kimi səciyyələnir: 1) respublika ərazisinin cəmi 7%-nə bərabər olan və əhalisinin 1/3-nin məskunlaşdığı Bakı ş. və Abşeron-Xızı i.r-unda ölkənin iqtisadi potensialının təxminən 75-80%-i təmərküzləşib; 2) respublika ərazisinin 93%-ni təşkil edən və əhalisinin 70%-nin yaşadığı digər ərazilərdə isə Azərbaycan iqtisadi potensialının cəmi 20-25%-i formalaşıb. Eyni zamanda, qeyd olunan 2-ci hissədə olan ayrı-ayrı regionalar arasında da sosial-iqtisadi inkişaf səviyyəsinə və iqtisad potensialına görə ciddi fərqlər müşahidə olunur[8].

Bu fərqləri daha yaxşı görmək və anlamaq üçün, əvvəlcə, iqtisadi rayonlar üzrə Azərbaycanın regional ərazi və əhalinin say strukturuna nəzər salaq.

Statistik məlumatlara görə, 2021-ci ildə respublika üzrə ***ümumi məhsul buraxılışının*** həcmi 105,3 milyard manat təşkil edib ki, bunun da 70,4 milyard manatı (66.9 %-i) Bakı şəhərinin, 6,15 mliyard manatı (5,8%-i) Abşeron-Xızı iqtisadi rayonunun payına düşüb. Başqa sözlə, ölkə üzrə bütövlükdə ümumi məhsulun ***73%-ə qədəri*** Bakı-Abşeron zonasında yaradılır. Halbuki 2021-ci ildə ölkənin ərazisi baxımından ən böyük iqtisadi rayon olan Şəki-Zaqatala iqtisadi rayonunda 1,8 mlrd. manatlıq ümumi məhsul yaradılıb ki, bu da ölkə üzrə ümumi məhsulun 1,7%-i deməkdir. Əhalisinin sayı baxımından iqtisadi rayonlar arasında öndə gedən Lənkəran-Astara iqtisadi rayonunun ümumi məhsul buraxılışında payı cəmi 1,9%-dir.

**Cədvəl 2**

**2021-ci ildə iqtisadi rayonlar üzrə Azərbaycanın *ümumi məhsul buraxılışı həcminin* strukturu və *ÜDM-in hər nəfər hesabı ilə düşən miqdarının müqayisəsi***

| | *Ümumi məhsul buraxılışının həcmi* həcmi | | *ÜDM-in hər nəfər hesabı ilə düşən miqdarı* | |
|---|---|---|---|---|
| | mln. manat | **ümumi yekunda payı, %** | manat | **Azərbaycan Respublikası,100%** |
| **Azərbaycan Respublikası, cəmi** | 105305,9 | **100** | 1036,8 | **100** |
| Bakı şəhəri | 70443,7 | 66,9 | 3058,7 | 295,0 |
| Abşeron-Xızı iqtisadi rayonu | 6153,0 | 5,8 | 1061,0 | 102,3 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 2282,4 | 2,2 | 372,9 | 36,0 |
| Qazax-Tovuz iqtisadi rayonu | 2412,2 | 2,3 | 349,6 | 33,7 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 1801,7 | 1,7 | 284,7 | 27,5 |
| Lənkəran-Astara iqtisadi rayonu | 1989,7 | 1,9 | 207,4 | 20,0 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 2140,4 | 2,0 | 381,0 | 36,7 |
| Mərkəzi Aran iqtisadi rayonu | 2453,3 | 2,3 | 330,1 | 31,8 |
| Qarabağ iqtisadi rayonu | 2816,8 | 2,7 | 409,6 | 39,5 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | - | - | - | - |
| Dağlıq Şirvan iqtisadi rayonu | 967,6 | 0,9 | 300,3 | 29,0 |
| Mil-Muğan iqtisadi rayonu | 1952,5 | 1,9 | 370,9 | 35,8 |
| Şirvan-Salyan iqtisadi rayonu | 2166,6 | 2,1 | 429,6 | 41,4 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 964,2 | 0,9 | 279,5 | 27,0 |
| Naxçıvan Muxtar Respublikası | 3814,6 | 3,6 | 823,9 | 79,5 |

Statistik məlumatlar əsasında aparılan hesablamaların nəticələri göstərir ki, 2021-ci ildə ölkəmizin əraziləri üzrə yaradılmış illik ***ÜDM-in adambaşına düşən miqdarı*** Bakı şəhəri üzrə 3058,7 manat, Abşeron-Xızı iqtisadi rayonu üzrə 1061 manat, Naxçıvan Muxtar Respublikasında 823,9 manat, Şirvan-Salyan iqtisadi rayonunda 429,6 manat, Qarabağ iqtisadi rayonunda 409,6 manat, Gəncə-Daşkəsən iqtisadi rayonunda 372,9 manat, Mərkəzi Aran iqtisadi rayo-

nunda 330,1 manat, Şərqi Zəngəzur iqtisadi rayonunda 279,5 manat, Şəki-Zaqatala iqtisadi rayonunda 284,7 manat, Quba-Xaçmaz iqtisadi rayonunda 381,0 manat, Lənkəran-Astara iqtisadi rayonunda 207,4 manat, Dağlıq Şirvan iqtisadi rayonunda 300,3 manat olmuşdur. Göründüyü kimi, Bakı şəhərində adambaşına düşən ÜDM-in miqdarı ilə ölkə üzrə ən aşağı göstəriciyə malik region arasında fərq 15 dəfədən çoxdur (cədvəl 2).

Statistikadan görsənir ki, 2021-ci ildə Azərbaycanda əhalinin ümumi gəlirləri 57,2 milyard manat olmuşdur. Bunun 33.6 milyard manatı yaxud 58.7%-i Bakı şəhərində, 2,5 milyard manatı yaxud 4.4%-i isə Abşeron-Xızı ərazisində formalaşmışdır: başqa sözlə, ölkə üzrə əhalinin illik ümumi gəlirlərinin 63,1%-i Bakı-Abşeron zonasının payına düşmüşdür. Əhalinin ümumi gəlirlərinin 5,1%-i (2,9 mlrd. manat) Mərkəzi Aran, hərəsi 2,5 mlrd. manat (4,4%) olmaqla Gəncə-Daşkəsən və Lənkəran-Astara, 3,7%-i Qazax-Tovuz, hərəsi 3.3% (1.9 mlrd. manat) olmaqla Quba-Xaçmaz, Şirvan-Salyan və Naxçıvan MR-in, 3,1%-i (1,8 mlrd. manat) Şəki-Zaqatalanın, 2,4%-i (1.4 mlrd. manat) Qarabağ iqtisadi rayonunun və 1.8%-i (1.0 mlrd. manat) Dağlıq Şirvan iqtisadi rayonunun payına düşmüşdür (cədvəl 3).

**Cədvəl 3**

**2021-ci ildə iqtisadi rayonlar üzrə Azərbaycan *əhalisinin ümumi gəlirlərinin həcminin və ümumi sənaye məhsulunun* həcminin strukturu**

| | *Əhalinin ümumi gəlirlərinin* həcmi | | *Ümumi sənaye məhsulunun* həcmi | |
|---|---|---|---|---|
| | mlrd. manat | **ümumi yekunda payı, %** | mlrd. manat | **ümumi yekunda payı, %** |
| **Azərbaycan Respublikası, cəmi** | 57,2 | **100** | 55,2 | **100** |
| Bakı şəhəri | 33,6 | 58,7 | 45,3 | 82,1 |
| Abşeron-Xızı iqtisadi rayonu | 2,5 | 4,4 | 4,1 | 7,4 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 2,5 | 4,4 | 0,9 | 1,6 |
| Qazax-Tovuz iqtisadi rayonu | 2,1 | 3,7 | 0,4 | 0,7 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 1,8 | 3,1 | 0,4 | 0,7 |
| Lənkəran-Astara iqtisadi rayonu | 2,5 | 4.4 | 0,3 | 0,5 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 1,9 | 3,3 | 0,3 | 0,5 |
| Mərkəzi Aran iqtisadi rayonu | 2,9 | 5,1 | 0,7 | 1,3 |
| Qarabağ iqtisadi rayonu | 1,4 | 2,4 | 0,2 | 0,4 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | - | - | - | - |
| Dağlıq Şirvan iqtisadi rayonu | 1,0 | 1,8 | 0,1 | 0,2 |
| Mil-Muğan iqtisadi rayonu | 1,4 | 2,4 | 0,6 | 1,1 |
| Şirvan-Salyan iqtisadi rayonu | 1,9 | 3,3 | 0,9 | 1,6 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | - | - | 0,0 | 0 |
| Naxçıvan Muxtar Respublikası | 1,9 | 3,3 | 1,1 | 2,0 |

Mənbə: www.azstat.org

2021-ci ildə ölkə ərazisində istehsal olunmuş 55,2 mlrd. manatlıq ***sənaye məhsulunun*** 45,3 mlrd. manatı və ya 82,1%-i Bakının, 4,1 mlrd. manatı (7,4%-i) isə Abşeron-Xızının payına düşüb. Başqa sözlə desək, Bakı-Abşeron zonasında ölkə iqtisadiyyatı üzrə məcmu sənaye istehsalının 89,5%-i istehsal olunub. Ölkənin qalan bütün ərazisi üzrə sənaye buraxılışının həcmi cəmi 10% təşkil edib.

2021-ci ildə iqtisadi rayonlar üzrə Azərbaycanda pərakəndə ticarət dövriyyəsinin təhlilindən aydın olur ki, 44,2 mlrd. manatlıq pərakəndə ticarət dövriyyəsinin strukturunda Bakı şəhərinin payı 58,1% (25,7 mlrd. manat), Abşeron-Xızı iqtisadi rayonunun payı 4,3% (1,9 mlrd. manat) təşkil edir. Buradan göründüyü kimi, Bakı-Abşeron zonası pərakəndə ticarət dövriyyəsində dominant rola (62,4%) malikdir.

Digər iqtisadi rayonlar arasında daha çox xüsusi çəkiyə malik olanlar Mərkəzi Aran iqtisadi rayonu (5,2%), Lənkəran-Astara iqtisadi rayonu (4,3%), Gəncə-Daşkəsən iqtisadi rayonu (4,1%) və s.-dir.

2021-ci ildə ölkədə ***əsas kapitala yönəlik investisiyaların*** həcmi 16,8 mlrd. manat təşkil edib ki, bunun da 10,2 mlrd. manatı Bakı şəhərində, 1,2 mlrd. manatı isə Abşeron-Xızı iqtisadi rayonunda reallaşdırılıb. Başqa sözlə desək, ***əsas kapitala yönəlik investisiyaların*** 11.4 mlrd. manatı və ya 68%-ə qədəri Bakı-Abşeron zonasının payına düşüb. Digər bölgələr üzrə 2021-ci il ərzində əsas kapitala yönəlik investisiyaların həcmi və ölkə üzrə ümumi investisiyalarda payı cədvəl 4-də verilib.

Statistik məlumatlara görə, ***2012-2021-ci illər ərzində*** ölkə ərazisində yatırılan ***əsas kapitala yönəlik investisiyaların*** həcmi 165 mlrd. manata yaxın olub ki, bunun da 105 mlrd. manata və ya 70%-ə qədəri Bakı şəhərində reallaşıb, qalan 60.0 milyard manatı isə bölgələrə yönəldilib.

Təhlil edilən dövr ərzində ölkədə investisiya qoyuluşlarında regionların payının daha da artırılmasına nail olunmuşdur. 2015-2021-cu illərdə investisiya qoyuluşların ümumi həcmində 5,4%-lik artım dinamikası olmuş, xüsusilə, Qarabağ (7,3 dəfə), Abşeron-Xızı (6,65 dəfə) və Quba-Xaçmaz (4,5 dəfə) iqtisadi rayonlarında yüksək innovativ texnologiyalar əsaslı qeyri-neft sektoru müəssisələrinə investisiya qoyuluşlarını əhəmiyyətli səviyyədə artırmışdır (cədvəl 6).

**Cədvəl 5.**

**Azərbaycanın iqtisadi rayonları üzrə əsas kapitala yönəldilmiş investisiyaların həcmi, mln. manatla**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| **Ölkə üzrə cəmi** | 15957 | 15773 | 17430 | 17245 | 18540 | 17226 | 16815,5 |
| Bakı şəhəri - cəmi | 6165,7 | 6615,1 | 5303,2 | 7528,1 | 7854,7 | 9219,7 | 10187,2 |
| Naxçıvan MR | 995,6 | 967,1 | 1115,6 | 1138,3 | 871,7 | 915,2 | 1062,2 |
| Abşeron-Xızı | 185,3 | 187,2 | 140,6 | 831,7 | 678,6 | 1669,8 | 1232,2 |
| Dağlıq Şirvan | 82,8 | 52,5 | 93,8 | 112,8 | 297,3 | 138,3 | 224,0 |
| Gəncə-Daşkəsən | 391,7 | 131,5 | 294,2 | 253,6 | 233,2 | 200,3 | 422,4 |
| Qarabağ | 183,1 | 126,5 | 182,2 | 183,2 | 181,8 | 174,4 | 1342,0 |
| Qazax-Tovuz | 961,0 | 207,2 | 152,1 | 134,5 | 379,3 | 276.3 | 272,9 |
| Quba-Xaçmaz | 99,7 | 102,7 | 161,2 | 732,0 | 238,0 | 289,0 | 446,2 |
| Lənkəran-Astara | 138,7 | 128,2 | 217,4 | 237,5 | 184,3 | 185,6 | 151,5 |
| Mərkəzi Aran | 304,4 | 171,7 | 380,4 | 224,0 | 309,5 | 315,2 | 151,4 |
| Mil-Muğan | 188,3 | 250,5 | 168,5 | 153,7 | 255,7 | 81,0 | 85,2 |
| Şəki-Zaqatala | 111,0 | 976,9 | 141,8 | 266,9 | 124,2 | 92,3 | 193,3 |
| Şərqi Zəngəzur | 0,0 | 5,5 | 13,0 | 9,2 | 1,5 | 0,0 | 862,2 |
| Şirvan-Salyan | 123,7 | 209,8 | 228,3 | 274,4 | 221,2 | 227,5 | 156,1 |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az (23.01.2022)

Ölkənin iqtisadi bölgələrində investisiya qoyuluşlarının təşviqində Sahibkarlığın İnkişafı Fondunun (SİF-in) güzəştli kreditləri mühüm əhəmiyyətə malikdir.

İqtisadi rayonlar üzrə əsas fondların istifadəyə verilməsi üstün templə artmışdır. Belə ki, 2021-ci ildə ölkədə istifadəyə verilmiş əsas fondların həcmi 2015-ci ilə nisbətən 30,7% artdığı halda, bəzi iqtisadi rayonlar üzrə bu göstərici xeyli üstün olmuşdur. Məsələn, bu göstərici Abşeron-Xızı iqtisadi rayonu üzrə 6,3 dəfədən, Quba-Xaçmaz iqtisadi rayonu üzrə 5,4 dəfədən, Lənkəran-Astara iqtisadi rayonu üzrə 4 dəfədən, Qarabağ iqtisadi rayonu üzrə 1,9 dəfədən çox olmuşdur. Bəzi bölgələrimizdə, məsələn, Gəncə-Daşkəsən iqtisadi rayonunda təhlil edilən dövrdə əsas fondların istifadəyə verilməsində 3 dəfədən artıq, Qazax-Tovuz iqtisadi rayonunda 5,6 dəfə azalma müşahidə edilib. İşğal altında olan torpaqlar da daxil olmaqla Qarabağ iqtisadi rayonu üzrə istifadəyə verilmiş əsas fondların orta illik həcmi 2017-2019-cu

illərdə 182-183 mln. manat, 2020-ci ildə isə 174,4 mln. manat, 2021-ci ildə isə 352,5 mln. manat təşkil etmiş, beləliklə də 2015-ci illə müqayisədə əsas fondların həcmi 2 dəfəyə yaxın artmışdır. Şərqi Zəngəzur iqtisadi rayonu üzrə 2021-ci ildə 2016-cı ilə nisbətən əsas fondların orta illik həcmi 3,4 dəfə artaraq, 15,8 mln. manat təşkil etmişdir.

2021-ci ildə ölkəmizin bank sektoru üzrə bütövlükdə iqtisadiyyata yönəlik 16,7 mlrd. manatlıq məcmu ***kredit qoyuluşunun*** 13,0 mlrd. manatı və ya 77,8%-i Bakı şəhərinin payına düşüb.

Sahibkarlığın İnkişafı Fondunun 2021-ci illik hesabatına görə Azərbaycanın iqtisadi rayonları üzrə təqdim edilən güzəştli kredit layihələrinin sayı 1892, məbləği isə 120,6 mln manat təşkil edib. Təqdim edilmiş layihə sayına görə Qarabağ iqtisadi rayonunun payı 33,3% (630 layihə), məbləğinə görə payı 9% (10,8 mln. manat) olub.

2021-ci ildə yeni açılmış iş yerlərindən (3213) 419-u (13%-i) Qarabağ iqtisadi rayonunun payına düşüb.

Ayrı-ayrı iqisadi rayonların qazla təminatı göstəriciləri 45-95% civarında dəyişir. Mərkəzləşdirilmiş şəbəkənin köməyi ilə içməli su təminatının müxtəlif bölgələr üzrə fərqli olması müşahidə edilir. Bu xidmətlə bağlı ən aşağı göstəricinin 2-10% civarında tərəddüd etməsi görsənir (Gədəbəy, Cəlilabad, Ağcabədi və s. kimi inzibati rayonlarda). Bölgələrdə mərkəzləşdirilmiş kanalizasiya xidmətləri ilə təminatın səviyyəsi də qeyri-qənaətbəxşdir. Rəsmi statistikaya görə, 60-dan artıq kənd rayonlarından 18-ində mərkəzləşdirilmiş kanalizasiya xidmətləri üzrə təminat səviyyəsinin 20%-dən az olması, 32 bölgə üzrə isə 40%-dən aşağı olması mövcuddur [9].

Müasir dövrdə əhalinin davamlı olaraq informasiyaya çıxışını təmin etməkdə internetin rolu danılmazdır. Ölkədə mobil rabitənin köməyi ilə internet əhali üçün sərfəli olmadığı üçün mənzillərin telefonlarla təminat səviyyəsini mühüm göstərici hesab etmək olar.

Rəsmi statistikaya görə, Bakıda hər 100 ailə üçün sabit şəbəkə telefonların sayı hazırda 113 və Abşeronda 99 olduğu halda, digər bölgələrdə bu göstərici 30-60 civarında tərəddüd edir. Beləliklə, yuxarıdakı araşdırmaları ümumiləşdirərək belə qənaətə gələ bilərik ki, ölkəmizin bütün sosial-iqtisadi inkişaf göstəriciləri üzrə istər Bakı-Abşeron zonası ilə digər regionalar arasında, istərsə də ölkənin qalan regionlarının (Bakı ş. və Abşeron-Xızı i.r-nu istisna olmaqla) özləri arasında nəzərəçarpacaq fərqlər qalmaqdadır.

**3. Azərbaycanın sosial-iqtisadi inkişafında regionun yerinin müəyyən edilməsinə müəllif yanaşması**

Bu günə qədər Azərbaycanda regionun sosial-iqtisadi inkişaf səviyyəsinin qiymətləndirilməsi üçün ümumi qəbul edilmiş metodologiya mövcud deyil. Hesab edirik ki, regionun Azərbaycanın sosial-iqtisadi inkişafındakı yerini müəyyən etməyə imkan verən orta çəkili indekslər metodundan istifadə etməklə regionun sosial-iqtisadi inkişaf səviyyəsini hesablamaq daha yaxşıdır.

Regional dövlət idarələrinin proqram-planlaşdırma işində bu metoddan istifadə edilməsi regionun iqtisadiyyatının təkrar istehsalı prosesindəki yerini qiymətləndirməyə imkan verəcək və sosial-iqtisadi inkişafın kompleks proqramlaşdırılması sistemi vasitəsilə bölgələrin sosial-iqtisadi inkişaf səviyyələrini orta Azərbaycan inkişaf səviyyəsinə yaxınlaşdırma şəraitinin sürətlə yaradılması prosesinin tənzimlənməsi rıçaqlarını hazırlamaq mümkün olacaqdır.

Biz təcrübədə orta çəkili indeks metodunun istifadəsini təhlil edəcəyik. Əvvəlcə Azərbaycanın bölgələrində adambaşına düşən istehsalı hesablamalıyıq. Bunun üçün aşağıdakı analitik göstəricilərdən istifadə etməyi məqsədəuyğun hesab edirik:

- bu regionda yaradılmış son məhsul və xidmətlərin ümumi dəyərini əks etdirən regionun ümumi daxili məhsulu (ÜDM);
- region əhalisinin müəyyən müddət ərzində əldə etdiyi müxtəlif gəlirlərin cəmini əks etdirən regionun ümumi daxili gəliri (xalis məhsul);
- ərazinin əsas ərzaq məhsulları ilə təminatı səviyyəsini xarakterizə edən kənd təsərrüfatının ümumi məhsulu;
- istehsal vasitələrinin istehsalının nəticəsini xarakterizə edən ağır sənayenin ümumi məhsulu;
- əhalinin həyat səviyyəsini xarakterizə edən istehlak mallarının istehsalı;
- regionda xidmət sahəsinin nəticəsini xarakterizə edən əhaliyə pullu xidmətlərin

göstərilməsi;

- regionda maddi rifah vəziyyətini və son istehlakı xarakterizə edən pərakəndə ticarət dövriyyəsinin dəyəri.

Bundan sonra biz yuxarıda sadalanan göstəricilərin hər biri üçün aşağıdakı düsturla sahibkarlıq fəaliyyəti səviyyəsinin indeksini hesablayacağıq:

**I j =*Kj / N / Kor,***

burada I j - j-ci göstəriciyə görə biznes fəaliyyətinin analitik göstəricisidir;

K j - ayrıca bölgə üçün göstəricinin qiyməti;

N - regionun əhalisi;

Kor - j-ci göstəricinin orta Azərbaycan üzrə dəyəridir.

Mövcud metodların əksəriyyətində ümumi göstərici ekspert qiymətləndirmələri metodu ilə müəyyən edilən çəki faizinə vurulan qismən göstəricilərin cəmlənməsi ilə alınır. Sonuncu həmişə obyektiv ola bilməz. Buna görə də biz sosial-iqtisadi inkişafın inteqral indeksini orta çəkili indekslər mexanizmi vasitəsilə hesablayacağıq ki, burada bütün təklif olunan göstəricilər ekvivalent hesab olunacaq.

Regional inkişaf səviyyələrinin ümumi tendensiyasını qiymətləndirərək belə nəticəyə gəlmək olar ki, Azərbaycan regionlarının yalnız yarısı orta Azərbaycan dəyərinə bərabər və ya demək olar ki, yaxın olan indekslə qiymətləndirilir.

Dünya təcrübəsi göstərir ki, regionlar üzrə ümumi iqtisadi göstəricilərin və sosial göstəricilərin ekstremal dəyərlərinin amplitudası 20-40% arasında dəyişə bilər [10]. Dövlətdəki bu cür sapma çərçivələri sosial-siyasi gərginlik üçün zəmin yarada bilməz, ərazi bütövlüyünün pozulmasına gətirib çıxara bilməz.

**Nəticə**

Ölkə ərazilərinin sosial-iqtisadi inkişaf səviyyələrinin inteqral göstəricilərini ümumiləşdirərək üç növ ərazini ayırd etmək olar:

1. Zəif inkişaf etmiş və əlavə yardıma ehtiyacı olan, sosial-iqtisadi inkişafın ümumi indeksi orta Azərbaycan səviyyəsinin 80%-ni keçməyən ərazilərə aşağıdakılar daxildir: Şəki-Zaqatala iqtisadi rayonu, Lənkəran-Astara iqtisadi rayonu, Quba-Xaçmaz iqtisadi rayonu, Qarabağ iqtisadi rayonu, Mil-Muğan iqtisadi rayonu, Şirvan-Salyan iqtisadi rayonu, Şərqi Zəngəzur iqtisadi rayonu.

2. Müvəqqəti dəstəyə ehtiyacı olan orta inkişaf əraziləri. Sosial-iqtisadi inkişaf səviyyəsinin ümumi indeksinin orta Azərbaycan dəyərinin 81-99%-ni təşkil etdiyi ərazilərin daxil edilməsi məqsədəuyğundur və onlara Gəncə-Daşkəsən iqtisadi rayonu, Mərkəzi Aran iqtisadi rayonu, Qazax-Tovuz iqtisadi rayonu, Naxçıvan Muxtar Respublikası daxil edilməlidir.

3. Sosial-iqtisadi inkişaf səviyyəsinin dəyərinin orta Azərbaycan dəyərinə bərabər və ya ondan artıq olduğu inkişaf etmiş zonalar. Bunlar Bakı şəhəri, Abşeron-Xızı iqtisadi rayonudur.

Regional inkişaf səviyyəsini orta Azərbaycan səviyyəsinə yaxınlaşdırmağın əsas vasitəsi ərazi əmək bölgüsü qanunlarına uyğun olaraq bölgənin bütün resurslarından, onun demoqrafik, təbii, istehsal və elmi-texniki potensialından istifadənin səmərəliliyini artırmaqla, sosial-iqtisadi inkişafın bazar və dövlət tənzimləyicilərinin rasional birləşməsinə əsaslanan regional kompleksin formalaşmasına nail olmaqdır.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Nuriyev Ə.X. Regional siyasət və idarəetmənin əsasları. Bakı: Elm və təhsil, 2011, 513 s.
2. Mahmudov M.M. Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. / Dərslik. Bakı: “İqtisad Universiteti” nəşriyyatı, 2011, 370 s.
3. Məmmədov S. Regional sosial-iqtisadi problemlərin həllində yerli idarəetmə orqanlarının rolunun artırılması. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyanın avtoreferatı. Gəncə, 2013 – 24 s.
4. Нагаева О.С., Основные положения механизма ресурсно-инновационного развития региона. Региональная экономика и управление: электронный научный журнал. No.59, https://eee-region.ru/article/5924/
5. Əliyeva N. Regional iqtisadiyyatın infrastrukturun innovativ inkişaf istiqamətləri. / İPƏK YOLU, No.3, 2021, səh.21-28.
6. Поповкін В.А., Калитенко А.П. Рівні соціально-економічного розвитку регіонів України-К.: НІСД,1994, випуск 24, 77с.
7. Ağayev R., Mehdiyev A. Sosial-iqtisadi inkişafda regional qeyri-bərabərlik probleminə dair araşdırma sənədi. Demokratik Təşəbbüslər İnstitutu (IDI). Bakı, 2021. – 20 s.
8. https://www.stat.gov.az/

9. https://bakuresearchinstitute.org/az/paytaxt-v%c9%99-%c9%99yal%c9%99tl%c9%99r-%c9%99sas-sosial-iqtisadi- f%c9%99rql%c9%99r/

10. Михасюк І.Р., Побурко О.А., Яцура В.В. Основи регулювання економічного і соціального розвитку регіонів.-К: «Віпол»,1995.- 231 с.

**Наргиз Акиф АГАЛАРОВА**
Азербайджанский государственный экономический университет, аспирант
E-mail: a.nergiz@mail.ru

## ТЕОРЕТИКО-ПРАКТИЧЕСКИЙ ПОДХОД К ОЦЕНКЕ СОВРЕМЕННОГО УРОВНЯ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ РЕГИОНОВ АЗЕРБАЙДЖАНА

Резюме

В статье были рассмотрены показатели и методы оценки регионального развития, проанализированы и оценены уровни социально-экономического развития регионов Азербайджана, а также авторский подход к определению места региона в социально-экономическом развитии страны. были сделаны обоснованные и соответствующие выводы. Для разработки оперативных решений и стратегических программ развития регионов важен анализ текущей ситуации и закономерностей выявленных социально-экономических явлений и процессов. Развитие современного мира требует учета интересов большого количества различных институтов, субъектов хозяйствования, государства и граждан, а также согласования и реализации этих интересов. В настоящее время Азербайджан имеет возможность полностью и всесторонне обеспечить интересы государства, регионов и общин для формирования общества всеобщего благоденствия.

**Ключевые слова:** регион, социально-экономическое развитие, Азербайджан, оценка

**Nargiz Akif AGALAROVA**
Azerbaijan State Economic University, PhD student
E-mail: a.nergiz@mail.ru

## THEORETICAL-PRACTICAL APPROACH TO ASSESSING THE CURRENT SOCIO-ECONOMIC DEVELOPMENT LEVEL OF AZERBAIJAN REGIONS

**Summary**

In the article, the indicators and methods of regional development assessment were reviewed, the socio-economic development levels of Azerbaijan's regions were analyzed and evaluated, and the author's approach to determining the place of the region in the socio-economic development of the country was justified and relevant conclusions were reached. In order to develop operational solutions and strategic programs for the development of regions, it is important to analyze the current situation and the regularities of the identified socio-economic events and processes. The development of the modern world requires taking into account the interests of a large number of different institutions, business entities, the state, and citizens, as well as coordinating and implementing these interests. Currently, Azerbaijan has the opportunity to fully and comprehensively ensure the interests of the state, regions and communities for the formation of a welfare society.

**Keywords:** region, socio-economic development, Azerbaijan, evaluation

**Daxil olub:** 12.02.2023